# *Alexandro BLANKO:* "Azərbaycan gələcəkdə daha böyük idman tədbirlərini keçirmək iqtidarında olduğunu sübut etdi"

İspaniya Olimpiya Komitəsinin prezidenti Alexandro Blanko bu ölkənin mətbuatına "Bakı-2015" ilk Avropa Oyunları ilə bağlı müsahibə verib. O, ilk Avropa Oyunlarının Bakıdakı ideal premyerasından sonra bu idman yarışının növbəti illərdə dünyanın ən vacib qitə turnirinə çevriləcəyinə əminliyini ifadə edib. A.Blanko deyib ki, Bakıdakı yarışlar qüsursuz təşkil olunmuşdu, idman qurğuları yüksək səviyyədə idi. Buna görə də II Avropa Oyunlarını keçirəcək ölkə xeyli çətinlik çəkəcək. Bakıda olan



yüksək təşkilatçılıqdan daha üstün nə isə etmək qeyri-mümkün görünür, lakin səviyyəni saxlamaq vacibdir.

İspaniya Olimpiya Komitəsinin prezidenti ölkəsini təmsil edən idmançıların ilk Avropa Oyunlarında 30 medal qazanmasını da böyük uğur hesab edir.

Azərbaycanın 2024-cü ildə Yay Olimpiya Oyunlarına ev sahibliyi etmək imkanları ilə bağlı suala cavabında A.Blanko deyib ki, əslində I Avropa Oyunlarını təşkil etməklə Azərbaycan gələcəkdə daha böyük idman tədbirlərini keçirmək iqtidarında olduğunu sübut etdi.

***Aygün ƏLİYEVA,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

*Madrid*